# İlk gənclik yaşı dövründə mənlik şüurunun və əxlaqi şüurun inkişaf xüsusiyyətləri

**Zemfira Səlimova**
*ADPU-nun baş müəllimi*
**Gülnarə Əlixanova**
*ADPU-nun baş müəllimi*
**E-mail:** gulnare.alixanova@mail.ru

**Rəyçilər:** psixol.ü.e.d., prof. R.İ. Əliyev,
ped.ü.f.d., dos. S.Q. Həsənli

**Açar sözlər:** gənclik, şəxsiyyətin inkişafı, mənlik şüuru, əxlaqi şüur, yetkinlik, özünüqiymətləndirmə

**Ключевые слова:** молодость, развитие личности, самосознание, нравственное сознание, компетентность, самооценка

**Key words:** youth, personality development, self-awareness, moral consciousness, competence, self-esteem

Gənclik insanın fiziki cəhətdən yetkinliyinin başa çatması, onun özünüdərketməsinin sürətli inkişafı, dünyagörüşünün formalaşması, peşə seçmək və yaşlılıq həyatına başlamaq dövrüdür.

Gənclik dövrünün başlanması və sonu haqqında müxtəlif fikirlər irəli sürülmüşdür. Gəncliyi sadəcə olaraq bioloji yaşın müəyyən həddə çatması kimi xarakterizə etmək olmaz. Gənclər bioloji, psixoloji, psixoseksual və eyni zamanda sosioloji amillərin təsiri altında inkişaf edib formalaşırlar. Bu prosesdə sosial-psixoloji amillər xüsusi yer tutur. Ona görə də gəncliyi sosial-psixoloji hadisə kimi qeyd etmək olar.

Mənlik şüuru yeniyetməlik dövründə formalaşır. Lakin o, birdən-birə əmələ gəlmir. Əvvəlki yaş dövrlərində körpə uşağın özünü güzgüdə tanıması, refleksiyanın əmələ gəlməsi – bunların hamısı mənlik şüurunun yeniyetməlik yaşı dövründə keyfiyyətcə daha yüksək inkişaf mərhələsinə daxil olmasını şərtləndirir.

Mənlik şüurunun bütün xüsusiyyətləri insanın "məni" vasitəsilə ifadə olunur. Onda eyni vaxtda həm subyektə, həm də obyektə mənsub cəhətlər əks olunur (1, 217). "Mənlik şüuru" dedikdə, insanın özünü şəxsiyyət kimi tanıması və dərk etməsi prosesi, insanın özünün tələbat və qabiliyyətlərini, fikir və hisslərinə şüurlu münasibəti nəzərdə tutulur. Onun əsas əlamətləri insanın öz "mən"ini "qeyri–mən"dən ayırmasıdır. Özünün psixi, fiziki və mənəvi keyfiyyətlərini qiymətləndirir və dərk edir.

Mənlik şüurunun strukturunda üç cəhəti qeyd fərqləndirmək lazımdır: 1) "Mən" obraz – insanın özü haqqında təsəvvürləri; 2) Özünüqiymətləndirmə - insanın özü haqqındakı təsəvvürlərinin adekvat surətdə qiymətləndirilməsi; 3) Potensial davranış reaksiyaları – insanın "Mən" obrazı və özünə verdiyi qiymətlərin onun davranış və rəftarında təzahür etməsi.

İlk gənclik dövründə mənlik şüurunun inkişafı prosesində məktəblilərdə böyüklük hissi yüksəlir. Onlar özlərinin artan imkanlarını dərk etməyə başlayırlar. Bütün bunlar həmin dövrdə özünüdərketmə meylinin daha sürətlə inkişaf etdiyini göstərir. Bu dövrdə məktəblilərdə özünüdərketmənin inkişafı ilə yanaşı mənlik şüurunun məzmunu da dəyişir, özləri haqqında təsəvvürləri artır. Oğlan və qızlar özlərinin xarici görkəmini, simalarını tamamilə yeni şəkildə qavramağa başlayırlar.

Zahiri görkəmlərindəki kiçicik bir qüsur onları hədsiz dərəcədə narahat edir. İlk gənclik

dövründə gənclər özlərini qiymətləndirərkən ayrı-ayrı hərəkətlərini təhlil edir, özləri haqqında müəyyən mühakimələr yürüdürlər. Yeniyetmələrdən fərqli olaraq böyük məktəblilərdə özünüqiymətləndirmə onların öz davranış və fəaliyyətlərini müstəqil olaraq təhlil etmək əsasında cərəyan edir. Ona görə də ilk gənclik dövründə özünüqiymətləndirmədə bir sıra uyğunsuzluqlar özünü göstərə bilir.

Bu dövrdə özünüdərketmənin, mənlik şüurunun inkişafı bir neçə istiqamətdə baş verir. Birinci növbədə gənclərin öz daxili aləmləri açılır. Gənc oğlan və qızlar öz emosiyalarını ətrafda baş verən hadisələrin doğurduğu hal kimi deyil, öz «mən»inin vəziyyəti kimi qavramağa başlayırlar. Öz xüsusiyyətlərini, başqalarına oxşamamalarını hiss etmək baş verir, eyni zamanda təklik hissi özünü göstərir.

Tədricən, həyata keçirilə bilən bütün arzuları və çox vaxt həyata keçirilə bilməyən idealları əsasında bir neçə az və ya çox real fəaliyyət planlarını hazırlamağa başlayır və bunlardan birini seçməli olurlar. Gənclərin həmin həyati planları onların bütün özünütəyin sahələrini: mənəvi simalarını, həyat tərzlərini, iddia səviyyələrini, peşə və həyatda öz yerlərini seçmələrini əhatə edir. Öz məqsədlərini, həyati niyyətlərini, həyati planlar qurmalarını dərk etmələri onların özlərini dərk etmələrinin, mənlik şüurlarının mühüm elementini təşkil edir.

Müxtəlif fəaliyyət növlərində əldə edilmiş nəticələrin təhlili, onun haqqında başqa adamların fikirləri və özünümüşahidə, özünün keyfiyyət və qabiliyyətlərini təhlil etmək sayəsində gənclərdə özünəhörmət kimi ümumiləşmiş münasibət yaranır. İlk gənclik dövründə iddia səviyyəsinin yüksəlməsi özünü qeyri-real yüksək qiymətləndirməyə gətirib çıxara bilir.

İlk gənclik dövründə mənlik şüuru ilə yanaşı əxlaqi şüurun inkişafında da əsaslı dəyişiklik baş verir. Müasir cəmiyyətimizdə mənəvi-əxlaqi sahənin və əxlaqi şüurun mövcud vəziyyəti, onların inkişaf meylləri istər gündəlik həyatda, istərsə də elmi-nəzəri səviyyədə müzakirə olunan mühüm məsələlərdən biridir.

Əxlaqi şüurun əsas anlayışlarına xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, əxlaqi hisslər, əxlaq normaları, əxlaqi prinsiplər, əxlaqi ideal, əxlaqi qiymətləndirmə və s. aiddir. Bunların arasında isə vicdan anlayışı etikanın ilk anlayışı, yaxşılıq anlayışı onun əsas anlayışıdır (2, 301).

Bu dövr yeni əxlaq səviyyəsinə - konvensional əxlaqa keçidlə xarakterizə olunur (L.Kolberq). Psixoloqlar bu cəhəti onunla izah edirlər ki, uşaq öz inkişafı prosesində əvvəlcə əxlaqi davranışın "xarici" normalarına istinad edir. Böyüklərin onu cəzalandırmasından yaxa qurtarmaq, onlar tərəfindən rəğbətləndirilmək üçün özünü yaxşı aparır, hərəkətlərinin böyüklər tərəfindən necə qarşılanacağını əsas götürürlər. Lakin inkişafın sonrakı mərhələsində şagirdlərdə əxlaqi davranışın "xarici" norma və qaydaları daxili - əqli plana keçir. Ona görə də bu dövrdə böyük məktəblilər onlar üçün əhəmiyyətli olan adamlar tərəfindən bəyənilmək və müəyyən qaydanı gözləmək tələbatının təsiri altında özlərini yaxşı aparmağa çalışırlar. Buradan isə aydın olur ki, bu dövrdə məktəblilər hələ də xarici, formal əlamətləri əxlaqi tələblərin mənbəyi kimi qavrayırlar. Tədricən psixi inkişafın yüksəlməsi ilə bağlı olaraq böyük məktəblilərdə dərkolunmuş əxlaqi prinsiplər təşəkkül tapmağa başlayır. Əxlaqi davranış konkret şəraitin və ayrı-ayrı şəxslərin təsirindən azad olur. Oğlan və qızlar avtonom əxlaqa malik olur.

Müasir gənc oğlan və qızlarda həyatın özü əvvəlki on illiklərindən fərqli psixologiyanın formalaşmasına səbəb olmuşdur. Bununla, əlaqədar olaraq gənclərin əxlaqi-etik problemlərə münasibəti də dəyişmişdir. Bu sahədə gənclərin daha cəsarətli baxışları özünü göstərir. Müasir böyük məktəblilər ədalətliliyi "hər kəsdən imkanlarına görə və hər kəsə gördüyü işə və ya insanların ümumi rifahı üçün verdikləri real töhfəyə görə" yanaşmaqda

görürlər Bu prinsip daha aydın şəkildə böyük məktəblilərin öz müəllim və valideynlərinə münasibətlərində təzahür edir.

Ümumiyyətlə, götürdükdə, orta məktəbi qurtaran oğlan və qızların əksəriyyəti özlərini praktik olaraq əxlaqi cəhətdən formalaşmış, yetkin və kifayət qədər davamlı əxlaqa yiyələnmiş adam kimi göstərirlər.

A.İ.Titarenko olduqca dəqiq qeyd etmişdi ki, «Əxlaqi şüurun strukturu – bu təkcə dərəcələr sistemi deyildir, amma bu, hər şeyin qarşılıqlı əlaqədə olduğu və hər bir elementin yalnız digər elementlərlə xüsusi əlaqəsində məna kəsb etdiyi bir vəhdətdir (3, 277). Əxlaqi şüurun gündəlik səviyyəsi adət, ənənə, norma və qiymətləndirmələr kimi struktur komponentlərlə təmsil oluna bilər. Adət – adi əxlaqi şüurun sabit elementidir.

Hamıya məlumdur ki, ailədaxili tərbiyə əxlaqi şüurun formalaşmasına təsir göstərən mühüm amillərdən biridir. Əxlaqi keyfiyyətlər insanda bütün həyatı boyu formalaşır və inkişaf edir. Lakin əsas əxlaqi norma və keyfiyyətlərin bünövrəsi insanın uşaqlıq, yeniyetməlik və gənclik yaşında qoyulur. Uşağın ilkin yaş dövrləri əsasən ailənin təsiri altında keçir. Uşaqlar valideynlərinin davranışlarından əxlaqi nümunələr götürür, onların əxlaqi norma və ali əxlaqi dəyərlərlə bağlı fikirlərini mənimsəyirlər, identifikasiya yolu ilə özünü valideynlərinə oxşatmağa çalışır. Onlar müəyyən yaşa çatdıqdan sonra əsas tərbiyəçi funksiyasını məktəb yerinə yetirir. Lakin ailədə uşağa məktəbəqədərki dövrdə hansı əxlaqi keyfiyyətlərin aşılanmasının böyük əhəmiyyəti vardır. Bir çox görkəmli pedaqoqların qeyd etdiyi kimi, uşağın evdə aldığı tərbiyə ilə məktəbdə aldığı tərbiyənin üst-üstə düşməsi müsbət haldır. Əgər ailədə yüksək əxlaqi dəyərlər qorunursa, uşaqların əxlaqi şüuru və mənəvi dünyası düzgün istiqamətdə formalaşır.

Cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin inkişaf edərək zənginləşməsi təhsilin ayrılmaz komponenti olan tərbiyə işinin təşkil olunması səviyyəsi ilə sıx şəkildə bağlıdır. Məlumdur ki, özünün əxlaqi keyfiyyətləri və davranışları ilə ölkəmizə layiq vətəndaşların formalaşmasında təhsil müəssisələrinin üzərinə mühüm vəzifələr düşür (4, 125)

Müasir informasiya texnologiyalarının geniş vüsət aldığı bir şəraitdə gənclərdə milli adət-ənənələrə sadiqlik hissini möhkəmləndirmək təlim-tərbiyə işi ilə məşğul olan insanların qarşısında mühüm vəzifələr müəyyənləşdirir. Bu sahədə ən vacib məqam milli adət-ənənələrlə müasir dövrün reallıqlarından doğan novasiyalar arasındakı qarşılıqlı bağlılığı rasional şəkildə uzlaşdırmaqdan ibarətdir.

Cəmiyyətin mənəvi-əxlaqi sahəsinə və əxlaqi şüurun formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərən faktorlardan biri də ədəbiyyat və incəsənətdir. Ədəbiyyat və incəsənət insanların dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynayır, onu dəyişməyə, ali əxlaqi dəyərlərin bünövrəsini qoymağa qabildir (5, 219). Məlumdur ki, ədəbiyyat və incəsənət əsərlərindən kənar əxlaqi dəyərlərin inkişafı, insanlarda özünütərbiyə və özünənəzarət hissinin formalaşması mümkün deyil. Bu əsərlər cəmiyyətin tərəqqisinə böyük stimul verən biliklərin zənginləşərək nəsillərdən-nəsillərə ötürülməsini təmin edən unikal formadır.

Azərbaycanda mənəvi-əxlaqi münasibətlər sisteminin inkişafına təsir göstərən amillərdən biri də kütləvi informasiya vasitələridir. Müasir dövrdə KİV həm də əxlaqi şüurun formalaşması prosesində inteqrasiya və yaradıcı funksiyalar yerinə yetirmək xüsusiyyətlərinə malikdir. Bu məsələlərdə sözsüz ki, valideynlərin də üzərinə böyük məsuliyyət düşür. Uşaqlar yaş dövrünə və psixologiyasına uyğun verilişlərə baxmağa istiqamətləndirilməlidir.

Yuxarıda göstərilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, mənlik şüurunun və əxlaqi şüurun münasibətlər sisteminin dövrün tələbləri ilə

uzlaşdırılması məsələsində ailə, təhsil, ədəbiyyat və incəsənət, kütləvi informasiya vasitələri və s. qarşısında mühüm vəzifələr dayanır.

İlk gənclik yaşı dövründə yaşlı nəsli ləyaqətlə əvəz etmələri, həqiqi vətəndaş, vətənpərvər olmaları üçün onlarda mənlik şüurunun və əxlaqi şüurun formalaşmasına kompleks şəkildə yanaşmaq olduqca vacib və zəruridir.

**Məqalənin aktuallığı.** İlk gənclik yaşı dövründə mənlik şüurunun və əxlaqi şüurun formalaşmasının düzgün iş formalarının və istiqamətlərinin araşdırılıb seçilməsi ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** İlk gənclik yaşı dövründə gənclərdə mənlik şüurunun və əxlaqi şüurun formalaşmasına xüsusi diqqətin yetirilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən pedaqoqlar, valideynlər, ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

## Ədəbiyyat


1. Bayramov Ə.S., Ə.Ə.Əlizadə. Psixologiya. Bakı: Çap çinar, 2006.
2. Mehdiyev R.Ə. Fəlsəfə. Dərs vəsaiti. Bakı: Şərq-Qərb, 2010.
3. Титаренко А.И. Структуры нравственного сознания. М.: Мысль, 1974.
4. M.Ə. Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2000.
5. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Baki: Nurlan, 2007.


**З. Салимова, Г. Алиханова**

## Особенности самосознания и морального сознания в первый юношеский возраст
## Резюме


В статье анализируются особенности самосознания и морали в первом молодежном периоде с педагогической и психологической точек зрения. В то же время формирование каждого молодежного сознания и морального сознания в его коллективных, общественных взглядах и той роли, которую он играет, играет главную цель - превратить свои духовные качества в яркое выражение.

В статье излагаются способы и средства проявления нравственных качеств человека на протяжении всей его жизни.


**Z. Salimova, G. Alikhanova**

## Features of self-consciousness and moral consciousness in the first youthful age
## Summary


The article analyzes the features of self-consciousness and morality in the first youth period from the pedagogical and psychological points of view. At the same time, the formation of each youth consciousness and moral consciousness in its collective, public views and the role that it plays, plays the main goal - to turn their spiritual qualities into a vivid expression.

The article describes the ways and means of manifesting the moral qualities of a person